# ƏSAS KONSEPSİYALAR

**Qender**

Qender konsepsiyası inkişafın və relyef işinin kişilərə, qadınlara, qızlara və oğlanlara necə təsir etməsini dərketməyə açarı əhatə edir.

**«Qender» anlayışını açarkən**

«Qender» anlayışı yeni məna daşıyan qədim sözdür. «Nənələrimizin sandığından» olan bu söz özündə çoxlu ideyaları birləşdirir. Yenicə istifadəyə başlandığındın və termin xarakteri daşıdığından, bu sözü tərcümə etmək çətindir. Qender fərqini və konsepsiyasını anlamaq – inkişaf prosesinin kişilərdə və qadınlarda, oğlanlarda və qızlarda necə də müxtəlifcəsinə əks olunduğunu dərk etməyimiz üçün çox vacibdir.

Cins insan biologiyasının faktorudur; biz bioloji cəhətdən kişi və qadın cinsinə mənsub olaraq doğuluruq. Kişilər mayalandırır, qadınlars insan övladına hamilə olur, onu bətnində gəzdirir, doğur və bəsləyir. Elə bu bioloji fərq üzərində də biz sosial əlaqələri və münasibətləri, davrvnış və fəaliyyət sistemini qururuq: bu isə bizim qender rolumuz və qender mənsubiyyətimiz deməkdir. Onlara aid məsələlər bizim özünüdərkin əsaslarına, bizim fərdiliyimizə və sosial münasibətlərimizə, bizim mədəniyyətimizə və ənənələrimizə təhlükə və təhdid hissi oyada bilər.

Bilmək də vacibdir ki, biz oğlan və qız olmağı, kişi və qadın kimi yetişməyi necə öyrənirik, necə kişi və qadın davranışımızı müəyyən edirik, necə öz cinsimizə uyğun hərəkət etməyi öyrənirik. Bizim öyrəndiyimiz nə ki var, hamısı bizim doğulduğumuz cəmiyyətdən, oradakı yerimizdən asılıdır, bizim kasıb ya imkanlı olmağımızdan, habelə bu və ya digər etnik qrupa mənsubiyyətimizlə bağlıdır. Fərqli cinslər üçün qender rolları da ayrıdır. Kasıb icmalarda qadınlar fermerçiliklə məşğul olur, öz torpaq sahələrini becərirlər, digərlərində bu «Allaha və təbiətə zidd» hesab edilir, üçüncülərdə – müharibə gedən yerlərdə – miqrasiya və digər faktorlar qadınları öz ailələrinin taleyi üçün tam məsul etmişdir, ənənələr dəyişmiş və onlara ailələrini dolandırmaq üçün istehsal vasitələrinə sahib olmaq imkanı vermişdir. Beləliklə, qender rolları nəinki fərqlidirlər, hətta zaman baxımından da dəyişgəndirlər.

Qender analizi nəinki rol və fəaliyyəti, eləcə də qarşılıqlı münasibətləri araşdırır. O, nəinki «kim nə edir?» sualını qoyur, həm də «kim qərarları qəbul edir?», «kim fayda əldə edir?», «kim torpaq və ya kredit, kim resurslardan istifadə edir?», «kim bu resurslara nəzarət edir?» və «daha hansı faktorlar, tutalım, mülkiyyət hüququ və ya varəsəlik qanunları, qarşılıqlı münasibətlərə təsir edir?».

Bu onu göstərir ki, qadınlarda və kişilərdə qender rolu və vəzifələri fərqli olduğundan onların təcrübəsi və tələbatı da fərqlidir. İstər kişilər, istərsə də qadınlar məhsuldar əməkdə və ictimai həyatda müəyyən rol oynayırlar, lakin formal olaraq qadınların zəhməti az sayıla bilər. Kişilərin kənd təsərrüfatı istehsalında gördüyü iş nəticə etibarilə gəlir gətirə bilərsə, qadınların eyni sahədəki zəhməti ailə istifadəsi üçün məhsul istehsalına yönələ bilər. Beləliklə, real dəyər gizli qalır. İctimai həyatda kişi başlıca olaraq açıq nümayəndəlik rolunu oynayırsa, qadının rolu daha həlledici, lakin az gözə çarpan ola bilər, əlelxüsus da özgələr üçün. Qeyd edək ki, həm məhsuldar fəaliyyət, həm ictimai həyat bioloji və sosial cəhətdən reprodiktiv fəaliyyətdirlər. İnsan cəmiyyəti aşağıdakılar üzərində qurulub: uşaqlar və ailə haqqında qayğı; ailə ocağının yaradılması; su və yanacağın əldə olunması; qida hazırlamağa hazırlıq, məhsulun emalı və qidanın hazırlanması; insanlara qulluq; mənzil təmizliyinin və sağlamlığının qorunması. Bu vəzifələr ağır zəhmət və çox vaxt tələb edə bilərlər, buna görə də hesaba alınmalıdırlar. Əsasən bu yük qadınların çiyninə düşür. Nəticədə bu zəhmət qiymətini almır, inkişaf prosesindən kənarda qalır, tez-tez zərərli nəticələrə səbəb olur. Məsələn, qadınların gün ərzində sudan istifadə etməsi və bir çox digər vəzifələrin

icrasındakı rolunun səhv qeydə alınması su təminatı layihələrinin ümumi nəticələrinə mənfi təsir göstərir: ola bilsin, bu layihələr texniki cəhətdən qüsursuz olsun, lakin sosial baxımdan yararsızdır, yəni qadınlar öz praktiki ehtiyaclarını ödəmək üçün bir qalaq iş görmək məcburiyyətində qaldığı zaman su onlara işdən sonra və uzaq məsafədə verilsin.

Qender aspektini nəzərə almayan inkişaf proqramları qadınlara nəinki xeyir gətirmir, əksinə, bəzən onlara əlavə narahatlıqlar yaradır, reproduktiv fəaliyyətdə və ictimai həyatda qender rollarının icrasında onların işini artırır və uğursuzluq gətirir.

Qender analizi cəmiyyətdə kişilərin və qadınların rolu və münasibətlərini, eləcə də bu münasibətlərdəki qeyri-bərabərliyi göstərir. BMT statistik məlumatlarının əksər hissəsi eyni ilə on il əvvəl olmuş həqiqətləri əks etdirir:

- Qadınlar dünya əməyinin 2/3 hissəsini yerinə yetirir
- Qadınlar dünya gəlirinin 1/10 hissəsini qazanır
- Qadınlar dünya savadsızlarının 2/3 hissəsini təşkil edir.
- Qadınlar dünya mülkiyyətinin 1/100 hissəsinə sahibdirlər

Qender problemləri üzərində iş qadınları kölgədən birinci plana çıxarır.

Qadınların vəziyyətini iki meyarla təsnif etmək olar:

- **Qadınların sosial şəraiti**: maddi vəziyyət, ağır əmək şəraiti, sağlamlığın zəif qorunması və s.
- **Qadınların sosial rolu**: qadınların eyni qrupdan olan kişilərlə müqayisədə sosial, siyasi, iqtisadi və mədəni statusu.

İnkişaf prosesinin qadınların vəziyyətini yaxşılaşdırmağa yönəlmiş təsiri, demək olar ki, onların praktiki tələbatlarına cavab verir. Lakin vacibdir ki, bu proses qadınların sosial roluna, onların strateji tələbatlarının ödənilməsinə, cəmiyyətdəki asılı vəziyyətlərindən irəli gələn problemlərin həllinə yönəlmiş olsun.

Bu tələbatları necə ödəmək olar? İctimai inkişafın əsas prinsipi ondan ibarətdir ki, insanlar özləri onların həyatına təsir edən qərarların qəbul olunmasında iştirak etməlidirlər. Bu o deməkdir ki, kişilər kimi, qadınların da fikri soruşulmalıdır, eləcə də qadınlar kimi, kişilər də qender bərabərsizliyinə qarşı çıxmalıdırlar.

## <u>Qender nədir?</u>

Söz ilk dəfə 1970-ci illərdə Enn Oakley və başqaları tərəfindən kişi və qadınların elə xüsusiyyətlərini təsvir etmək üçün işlədilmişdir ki, bununla sosial təyinatın bioloji təminata əks olduğunu göstərmək olsun. Qender və cins fərqli anlayışlardır. Cins və qender arasında fərq əsasən ona görə qoyulmuşdur ki, kişilər və qadınlar nə iş görsələr belə, onların cinsi funksional müxtəlifliyi istisna olmaqla, onlardan nə gözlənilsə də, hər şeyin dəyişə bildiyini və zaman keçdikcə dəyişdiyini, və bu dəyişikliklərə uyğun olaraq sosial və mədəni faktorların da dəyişdiyini xüsusi qeyd etmiş olsunlar.

Cins və qender arasındakı konseptual fərq haqqında Enn Oakleyin işləyib hazırladığı təlim ideyaların dəqiqləşdirilməsi üçün faydalı alət olub, demək olar ki, universal baxış kimi qəbul edilmişdir. Bu fərqə görə, cins bioloji olaraq irəlicədən müəyyən olunub, qender isə kişiləri və qadınları istənilən icmada xarakterizə etdiyindən, qabaqcadan sosial və fizioloji (deməli, həm də tarixi və mədəni) hal kimi müəyyən edilib.

Bioloji və fiziki quruluş (xromosomlar, daxili və xarici orqanlar, hormonal struktur, ikinci dərəcə cinsiyyət əlamətləri) kişi və qadın cinsinin müəyyən edilməsinə əsas verir. Lakin qenderi təyin etdikdə kişi və qadın xüsusiyyətlərinin və rollarının sosial və mədəni qavranışına fikir verməк vacibdir.

Qender insana sosiallaşma prosesində onun məxsus olduğu cəmiyyətin mədəniyyəti vasitəsilə aşılanır. Bir çox mədəniyyətlərdə oğlanları kişilərə xas keyfəyyətli davranışa həvəsləndirir, qızlara isə özlərini qadın kimi aparmalarını öyrədirlər. Məsələn, uşaqlara bağışlanan oyuncaqlar vasitəsilə – oğlanlara silah, qızlara kukla bağışlanılır – və ya müxtəlif intizam tələbləri ilə, yaxud onların çalışıb nail olmaq istədikləri iş və

karyera ilə, ya da mətbuatda yaradılan kişi və qadın obrazları ilə. Uşaqlar doğulduğu məqamdan özlərinin bu və ya digər qenderə mənsub olduqlarını öyrənirlər. Onlar dərk etməyə çalışırlar ki, özlərini necə aparsınlar ki, ətrafdakılar tərəfindən kişi və ya qadın kimi qəbul olunsunlar. Onların bütün həyatı boyu bu hal valideynlər, müəllimlər, həmyaşıdlar, mənsub olduqları mədəniyyət və cəmiyyət tərəfindən stimullaşdırılır.

Bütün cəmiyyətlər müəyyən cinsə bioloji mənsubluğu qender təsvirinin əsas meyarlarından biri kimi istifadə edirlər, lakin bu sadə başlanğıç, əlamətdən başqa elə iki mədəniyyət tapılmaz ki, onlar bir qenderi digərindən fərqləndirən başqa əlamətlər üzrə tam razılığa gəlmiş olsunlar. Buna görə də qender rollarına baxışda mədəniyyətlər arasında xeyli fərqlər mövjuddur.

**Qenderin müasir tərifi**: insanlar yalnız bioloji olaraq kişi ya qadın cinsinə mənsub doğulurlar, inkişaf prosesində isə, ilk növbədə ailədə və cəmiyyətdə tərbiyə almaqla, onlar oğlan və ya qız olmağı öyrənir, böyüyəndə qadın və ya kişiyə çevrilirlər. Onlar müvafiq davranışa və baxışlara, rol və fəaliyyətə, özgə adamlara necə münasibət bəsləməyə öyrədilirlər. Qenderi eyniləşdirən və qender rolunu müəyyən edən də elə bu davranışdır.

**Qender** – dinamik konsepsiyadır: bir mədəniyyət daxilində kişilər və qadınlar üçün qender rolları mədəniyyət və sosial qruplardan asılı olaraq çox fərqlənirlər; İrq, sinif, iqtisadi şərait, yaş həddi – bunlar hamısı kişilər və qadınlar üçün məqbul sayılan səviyyələrə təsir edir. Bundan başqa mədəniyyət dinamikdir, sosial-iqtisadi şərait isə zaman-zaman dəyişir. Beləliklə, qender anlayışları da dəyişir. Bəzən dəyişikliklər daimi xarakter daşıyırlar. Qender digər fərqləri də dərk etməyə kömək edir: qender fərqlərinin və qender ayrı-seçkiliyinin düzgün (adekvat) dərki bizə digər əsaslarda olan fərqləri və ayrı seçkilikləri anlamaqda köməklik edir.

**Qender fərqinin (differensiasıyasının) aspektləri** fərqləndirilən qender rollarının sosial konstruksiyası qadınlar və kişilər üçün dərin məna kəsb edir:

**Əmək (professional) fəaliyyəti baxımından:** həm qadınlar, həm də kişilər aşağı həlqədən tutmuş hökümət səviyyəsinədək istehsal (əmtəə və xidmət) sferasında və ictimai həyatda rollara malikdirlər. Lakin cəmiyyətdə reproduktiv funksiyalarla assosiasiya edilən vəzifələr (ailənin əsas ehtiyaclarının ödənməsi, şəxsi təsərrüfatın aparılması, ev və uşaqlar haqqında qayğı) praktiki olaraq bütövlükdə qadının çiyinləri üzərinə düşür. Bunun nəticələrindən biri odur ki, bütün dünyada qadınların iş gunu daha uzundur. Digər əsas məsələlərdən biri də əməyin ödənməsidir. Reproduktiv fəaliyyətin mühüm vacibliyinə baxmayaraq, o qiymətləndirilməyib, bu isə özünü onda göstərir ki, onu «əsl iş» kimi heç qəbul da etmirlər. Evdar qadınlar tez-tez deyirlər: «Mən işləmirəm», ona görə ki onların əməyi hesaba alınmır və qiymətini tapmır. Məsələn, əgər Böyük Britaniyada qadının ev işi bazar dərəcələri ilə qiymətləndirilsə idi, bu ildə 12-15 min funt sterlinq pul edərdi.

Bəzi istisnalar edilməklə, ictimai həyatın bütün səviyyələrində kişi öz statusuna görə daha yüksək mövqelər tutur və qərar qəbul etmək hökmünə malikdir. Qadınlar başlıca olaraq yardımçı və təşkilati rolları icra edirlər. Bu sahədə çalışan kişilər yüksək məvacib aldıqları halda qadın işi kifayət qədər qiymətləndirilmir.

**Cəmiyyətdə əməyin bölünməsi**

Əməyin cinslər arasında bölünməsi daha əyani olaraq qender yanaşması ilə izah olunur, lakin bir halda ki, reproduksiya kişi və qadın cinsləri arasındakı ümumi fərqlərə əsaslanır, cəmiyyət bu faktoru digər məsələlərin həllində də əsas kimi istifadə edir. Bu məsələlər mədəni adət-ənənələrə uyğun həll olunur, kişi və qadınların rollarını

müəyyən edirlər. Hətta uşaq yaşlarında belə bəzi icmalarda kişi üstün rol oynayır. Gördüyümüz kimi, vəzifələr və əməyin bölünməsi fərdi mənada cinslə əlaqədar deyildir və, əgər bu belədirsə, onda onlar bir mədəniyyətdən digərinə keçiddə eyni cins üçün ümumi deyildirlər, belə ki, mədəniyyətlərin öz xüsusiyyətləri vardır.

Qender təkcə bir mədəniyyətdən digərinə keçiddə fərqlənmir, o, eyni zamanda bir mədəniyyət daxilində müəyyən zaman çərçivəsində fərqlənir, belə ki, mədəniyyət sükunətdə deyil, daimi inkişafdadır.

**İnsan hüquqları haqqında:** Bütün dünyada qadınların hüquqları rədd edilir. Qender bölümü kişilər və qadınlar arasındakı bərabərsizlik və hökmran münasibətlərdən bəhs edir. Dünya əhalisinin yarısı cinsindən asılı olaraq o biri yarısına müxtəlif tərzdə tabedir. İnsan haqları barədə beynəlxalq qanunvericiliyin insanların cinsindən, irqindən, təbəqəsindən, məzhəbindən və s. asılı olmayaraq bərabər hüquqlara malik olmaları haqqında qarantiyalarına baxmayaraq, qadınlar kişilərlə bərabər torpaq, əmlak mülkiyyət, təhsil, işə götürmə, sığınacaq, qida və öz uşaqları üzərində hüquqlara malik deyildir. İnsan hüquqları haqqında beynəlxalq qanunvericilik qadınlara ziyan yetirməni qadağan etməsinə baxmayaraq bir çox mədəniyyətlərdə qadınların bədənləri dini mərasimlərdə şikəst edilir, qadınları hər gün döyür, hətta mədəni ənənə xətrinə öldürürdülər. Qadınlara qarşı zorakılıq – insan hüquqlarının pozulması deməkdir.

**Mədəniyyət və din haqqında:**Qadınlar ayrı-seçkiliklə üzləşirlər, din və mədəniyyət isə qender sıxışdırılmasının və bərabərsizliyin mənbəidirlər. Din insanlar arasında bərabərliyə çağırdığı halda, həqiqətdə qadınlar asılı rol oynayır və dini iyerarxiyadan qovula bilər. Məsələn, xristian kilsəsində dini mətnlərin müxtəlif cür yozulur və müxtəlif dini ənənələr qadınlar üçün fərqli məna daşıyır.

Dinlərin yarandığı dövrdə onların insan cəmiyyətinə mütərəqqi təsirini danmaq olmaz. Məsələn, İslam dini islam xalqlarını dərin cəhalət və siyasi haos girdabından çıxararaq, onları böyük nailiyyətlər və mədəni inkişaf yoluna qoydu, bu isə parlaq tərəqqi ilə nəticələndi, dünya sivilizasiyası tarixində tam bir dövr yaratdı.

Məsələn, Tixoplav V.Y. və Tixoplav T.S. «Böyük keçid» kitabında yazdıqları kimi, islama qədərki dövrdə, hazırda əhalinin əksəriyyətinin bu ən gənc dinə sitayiş etdiyi ölkələrdə, *«…qadının ümumiyyətlə heç bir hüququ yox idi, onun heç həyatı belə atasının ya ərinin zorakılığından müdafiə olunmurdu. Ailə başçısının hökmü tam və ölçülməz idi: əgər o, istəsə idi, arvadını və uşağını öldürə bilər, bunun üçün heç bir məsuliyyət daşımazdı. Əəlxüsus kasıb ailələrdə, çox vaxt, yeni doğulmuş qız uşaqlarını açıqcasına məhv edir, qan tökülməsin deyə, onları diri-diri torpağa basdırırdılar. Qızın yaşından asılı olmayaraq onunla evlənmək olardı: arvad almaq üçün onun atasına pul vermək lazım idi, yəni sadəcə olaraq qadını satırdılar. Ərdə olarkən onun heç bir hüquqi haqqı yox idi, yəni o, mülkiyyət saxlamaq, məhkəməyə müraciət etmək, ərinə varis olmaq, boşanmaq istəmək, dul qaldıqda təkrar ərə getmək və s. hüquqlardan məhrum idi.*

*Kişi isə, əksinə, arvadına görə heç bir öhdəlik daşımırdı, ona yemək və geymək verməyə də bilərdi, əgər qadının müəyyən əmlakı və varı olmuş olsa da, nigaha daxil olan andan onlar bütövlükdə kişiyə məxsus olurdu. Kişi arvadını istədiyi vaxt evdən qovar, ona heç nə verməyə bilərdi.*

*İslam bütün bunlara köklü dəyişikliklər gətirdi, qadınlara və uşaqlara qarşı humanist və ədalətli olmağı tələb etdi. Kişi artıq onların həyatı və əmlakı üzərindəki tam hakimiyyətini itirdi, o, arvadına məxsus əmlakın yalnız üçdə birindən istifadə etmək hüququna malik oldu; kişi arvadlarını bütün vacib olan şeylərlə təmin etməli, onlar haqqında müəyyən edilmiş qaydalara ciddi əməl etməli idi, bu qaydaların yerinə yetirilməməsi qadına boşanmağı tələb etmək hüququ verdi.*

*Quranın təyin etdiyi əsas mənəvi dəyərlər digər böyük dünya dinlərinin tələbləri ilə həmahəngdir: ədalət, paklıq, mərhəmət, düzlük, yaxınlarına məhəbbət, dini qorumaq borcu, ləyaqətli həyat tərzi, Allahı və peyğəmbərləri anma.»*

Bu əbədi dəyərlər qender aspektində də keçilməz məna daşıyırlar. Axı onların cəmiyyətdə, xüsusən də qadın və kişi münasibətlərində, tətbiqi qender problemlərinin həllinə gətirib çıxarar. Lakin, etiraf etmək lazımdır ki, əsrlər keçdikcə ilahi qanunların nümayəndələri, o cümlədən müsəlmanların, davranış qaydalarına çoxlu yad, zərərli və ikiüzlü ideyalar gətirmişdirlər.

Bununla belə din əvvəlki kimi bərabərlik və ədalət vəd edir, və kişinin qadın həyatı üzərindəki hökmünə faktiki nəzarət rolunu oynayır, yenə də o, çoxlu qadınlar üçün inam və dayaq mənbəi sayılır. Din kimi, mədəniyyət də istər qadınlar, istərsə də qadınlar və kişilər arasında birlik və həmrəylik mənbəyi ola bilər.

Qender sıxışdırmaları çoxlu formalara malikdirlər və bunun üçün əlavə əsaslar kimi irqi, etnik, təbəqə və sinfi mənsubiyyəti göstərmək olar. Sıxışdırılma formaları müxtəlif faktorlardan asılıdır, ona görə də biz gərək heç vaxt axıra qədər başa düşmədiyimiz mədəniyyətlərdə və sosial qruplarda qender sıxışdırılmaları haqqında mülahizələr yürütməyək. Lakin bir qayda olaraq, kişilərin qadınlar üzərində hakim olmaları həyatın bütün sferalarında – siyasətdə, məhkəmələrdə və məhkəmə sistemində, bazarlarda, təhsil müəssisələrində, həmkarlar ittifaqlarında, təşkilatlarda, ev təsərrüfatının aparılmasında və yataqda – hiss olunur.

Sosial bərabərlik yolunda qender – son həddir, çünki o, özündə bütün icmalar və bütün insanlar üçün baxış və təcrübələrin transformasiyasını birləşdirir: o bizim hamımıza, bizim ən intim münasibətlərimizə toxunur. Buna görə də o, qenderdən və qender şüurunun təlimindən keçən kişilər və qadınlar arasında güclü hisslər oyadır.

## QENDERİN VƏ İNKİŞAFIN ANALİZİ

### Yanaşmalar

Qender və İnkişaf, eləcə də Qadınlar İnkişafda çox vaxt bir-birini əvəz edir və qadınlar üçün daha çox layihələri dəstəkləməyə imkan verirlər. Yadda saxlamaq vacibdir ki, bu terminlərdə yalnız «inkişaf» istifadə olunsa da, onlar eyni ilə böhran vəziyyətlərə də aiddirlər.

Qadınlar İnkişafda yanaşması hazırkı vəziyyətdə qadınların ehtiyat mənbələrinə geniş yol tapması və onların səmərəsinin artırılması yolu ilə inteqrasiyasına əsaslanır. Bu tez-tez həddən artıq işlə yüklənməyə və qadınlarla kişilər arasındakı bərabərsizliyin artmasına səbəb olur.

Qadınlar və İnkişaf yanaşması kişilərin və qadınların rollarının və ehtiyaclarının analizinə əsaslanır ki, bu da bütövlükdə cəmiyyətin xeyrinə qadınların vəziyyətinin yaxşılaşdırılmasına yönəlib. Qender və İnkişafın başlıca əsasları – hamı üçün bərabərliyə və insan hüquqlarına hörmət edilməsinə nail olmaq işidir.

### Qender şüuru

Qender elə-belə olaraq mövcud inkişaf modellərinə əlavə oluna, inkişaf və yardım proqramlarına daxil edilə bilməz. Qender şüuru ayrıca və ya əlavə məsələ deyildir. Bu bizim insanları və cəmiyyəti dərk etməyimizi formalaşdıran baxış tərzidir. Gördüyümüz kimi, qender insan şüurunun və münasibətlərinin, əqidə və hərəkətlərinin mərkəzindədir. Biz onu görmürük, lakin biz ona diqqətlə yanaşanda və öyrəndikdə aşkar edirik ki, dünya başqa cür görünür. Qender şüuru – dünyaya yeni gözlə baxmaq və həmişə yeni biliklər üçün açıq olmaq deməkdir. İnkişaf və yardım işlərini yeni baxışla nəzərdən keçirəndə məhz onu görmək olar ki, qadınların və kişilərin tələbatları fərqlidirlər, bu isə indi bütün dünyada sayagəlməz nümunələrdə sənədləşdirilmişdir, əvvəllər bu əksər humanitar agentliklər tərəfindən qeydə alınmırdı. Nəticədə bir çox inkişaf proqramları

qadınların vəziyyətini nəinki yaxşılaşdırmış, əksinə, ağırlaşdırmışdır. Bunun başa düşülməsi – inkişafın qadının vəziyyətinə təsirinin öyrənilməsinə gətirmiş və Qender və İnkişaf analizinin başlanğıcını qoymuşdur.

**Nə üçün qender inkişafın problemi kimi tanınır**

Qadınların inkişaf prosesində iştirakı (və ya iştirak etməməsi) problemləri son illərdə daha çox öyrənilməyə başlanmışdır. Lakin bu problemlərin öyrənilmə istiqaməti qadınların inkişafında və qender rollarında yerinin dərkinin inkişafından asılı olaraq dəyişirdi. Kişilərlə qadınların bərabərliyi prinsipi istər 1945-ci ildə BMT Nizəmnaməsi, istərsə də 1948-ci ildə İnsan Hüquqlarının Ümumi Bəyannaməsi ilə tanınmasına baxmayaraq, inkişaf planlarını tərtib edənlərin və onları həyata keçirən işçilərin əksəriyyəti qadınların inkişaf prosesindəki yerini kifayət qədər müəyyən etmirlər. Bəzi tədqiqatçılar göstərdilər ki, inkişaf planlarının tərtibatçıları belə bir fərziyyə üzərində işləmişlər: cəmiyyətin bir hissəsi üçün (kişilərə) gələr nədən ibarətdirsə, bundan onun ikinci hissəsinə də (qadınlara) pay düşür.

Qadınların inkişaf prosesində yerinin müəyyən edilməsi yolları bir neçə illər boyu müxtəlif olmuşdur:

1950-1960-cı illərdə qadın problemləri inkişafın insan haqları bölməsində birləşirdi və qadınlar mühafizə edilən, ya tövsiyə verən obyektlər kimi baxılırdılar, lakin heç də mütləq məsləhətçi kimi yox. Bu dövrdə BMT-nin xüsusən də qadınlara həsr olunmuş Bəyannamələri aşağıdakıları əhatə edirdi.

- İnsan alveri və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı Konvensiya – 2 dekabr 1949-cu ildə qəbul olunmuş, 25 iyul 1951-ci ildə qüvvəyə minmişdir;
- Kişilərin və qadınların gördükləri iş müqabilində bərabər dəyərdə qiymətləndirilməsi haqqında Konvensiya – 29 iyun 1951-ci ildə qəbul olunmuş, 23 may 1953-cü ildə qüvvəyə minmişdir;
- Analığın qorunması haqqında Konvensiya – 28 iyun 1952-ci ildə qəbul olunmuş, 7 sentyabr 1955-ci ildə qüvvəyə minmişdir;
- Qadınların siyasi hüquqları haqqında konvensiya – 20 dekabr 1952-ci ildə imzalanmaq və ratifikasiya üçün açılmış, 7 iyul 1954-cü ildə qüvvəyə minmişdir;
- Ərli qadının vətəndaşlığı haqqında Konvensiya – 29 yanvar 1957-ci ildə imzalanmaq və ratifikasiya üçün açılmış, 11 avqust 1958-ci ildə qüvvəyə minmişdir;
- Qadınlar barəsində ayrı-seçkiliyin ləğvi haqqında Konvensiya – BMT Baş Məclisinin 7 noyabr 1967-ci il tarixli 2263 (XXII) saylı Qətnaməsi ilə təsdiq olunmuşdur.

1970-ci illərdə qadınlarla hələ məsləhətləşməsələr də, onların inkişaf prosesindəki aparıcı rolu getdikcə daha geniş tanınırdı. Xüsusən də bu əhali və ərzaq məsələlərində daha gözəçarpan idi. Qadınlar inkişaf prosesinə qoşulmadı və xüsusi layihələrin daha sanballı və uğurlu olmasında faydalı mənbə kimi qiymətləndirirdilər.

1972-ci ildə 1975-ci ilin Beynəlxalq qadınlar ili elan olunması qərara alındı. Qadın Onilliyini açan bu qərarı da BMT qəbul etmişdi. Elə bu dövrdə BMT-nin daha bir neçə Bəyannamə və Konvensiyası qəbul edildi:

- Qadınların bərabərliyi və onların tərəqqi və sülhün inkişafına töhfəsi haqqında 1975-ci ilin Meksika Bəyannaməsi – 15 iyun – 2 iyul 1975-ci Beynəlxalq qadın ili çərçivəsində BMT Ümumdünya Konfransında qəbul olunmuşdur.
- Qadınlar barədə hər-hansı formada ayrı-seçkiliyin ləğvi haqqında Konvensiya – BMT Ali Məclisinin 18 dekabr 1979-cu il tarixli Qətnaməsi ilə 1 mart 1980-ci ildən imzalanmaq və qoşulmaq üçün açılmış, 3 sentyabr 1981-ci ildə qüvvəyə minmişdir.

1980-ci illərdə inkişaf prosesinin bütün sektorlarında və səviyyələrində qadınların fəal və xeyirxah rolunun dərketmə meyllərinin artdığı müşahidə olunurdu. Qismən bu, həmin meyllərin göstərdiyi kimi, qender rollarının başa düşülməsi hesabına baş verirdi. Elə həmin dövrdə BMT Baş Məclisinin 3 dekabr 1982-ci il tarixli 37/63 saylı Qətnaməsi ilə təsdiq olunmuş Beynəlxalq sülhə və əməkdaşlığa yardımda qadınların iştirakı haqqında Bəyənnamə qəbul olundu.

1985-ci ilin Nayrobi konfransı BMT qadın Onilliyinin kulminasiya nöqtəsi oldu. Bütün dünyadan gələn qadınların bir müddət intensiv müzakirəsindən sonra konfrans «İrəliyə yönəlmiş Strategiya»-nın qəbulu ilə işini başa vurdu. Bu Strategiya on il ərzində müzakirə predmeti olmuş əsas mövzuları (bərabərlik, inkişaf və sülh, onlarla bağlı olan sağlamlığın qorunması, təhsil və məşğulluq mövzuları) özündə birləşdirdi və qadınların bu sahələrin hər birində üzləşdikləri maneələri müəyyən etdi; onların aradan qaldırılması üçün ümumi strategiya təklif etdi və hökümətlərə və digər orqanlara bütün səviyyələrdə qadınların bərabərliyi üçün lazımi imkanlar yaradılmasına dair tövsiyələr hazırladı.

Qadınların hər hansı bir icmada oynadığı rol müxtəlifdir və onların mövqeyi qanunvericiliklə, dini normalarla, iqtisadi vəziyyətlə, sinfi və etnik mənsubluqla, mədəni dəyərlərlə, onların ölkəsindəki əsas fəaliyyət növləri ilə, cəmiyyət və ailə ilə müəyyən olunur. Bir qayda olaraq, qadın vəzifələri ev işi ilə məhdudlaşır: uşaqlara qulluq, ailənin sağlamlığı haqqında qayğı, yemək bişirilməsi və verilməsi, şəxsi təsərrüfatının aparılması. Əksər icmalarda onlar ailənin səmərəli fəaliyyətində önəmli rol oynayırlar: formada, ödənişli ev işində və xidmətlərində, gəlir gətirən istehsal və ya digər sahələrdə. Digər icmalarda ictimai həyatda əhəmiyyətli yer tuturlar.

Bütün sadalanan sahələrdə – reproduktiv, səmərəli ya ictimai - qadınlar inkişaf prosesinin mənfi təsiri ilə üzləşiblər. İnkişaf strategiyası, bir qayda olaraq, tez-tez və daha çox səslənən tələbatları və siyasi aktivliyi başlanğıc nöqtə kimi nəzərə alınmasına baxmayaraq, qadınların iqtisadi fəaliyyətdə hələ də qəbul edilməyən yüksək səviyyədə iştirakı ilə onların siyasi və sosial həyatda aşağı səviyyədə təmsil olunmaları arasında nəhəng uçurum yaranmışdır. Qender yanaşmasına görə, kişilərin və qadınların tələbatlarının ödənilməsinə yönəlmiş fəaliyyət dəqiq müəyyən edilməlidir. Qadınların oynadığı reproduktiv, səmərəli, sosial, yaxud ictimai rol eynən kişilərin iqtisadi və sosial sahələrdəki rolu kimi baxılmalıdır. Kişilərin və qadınların rollarının öyrənilməsi yolu ilə onların hakimiyyətə cəlb olunması və ya spesifik məqsəd və problemlərə dair qərarlar qəbul etmək tələbatlarını dərindən öyrənmək olar.

Tarixən inkişaf sahəsində mütəxəssislər Şimaldan yayılan qender konsepsiyasından istifadə edirdilər. Layihələrin əksəriyyəti, əvvəllər olduğu kimi, indi də belə yanlış bir fikrə əsaslanırlar ki, güya qadının qeyri-məhsuldar fəaliyyəti ilə saxlanan kiçik ailə təsərrüfatının rifahı kişinin başından asılıdır. Bu əksər mədəniyyətlərə xas deyildir. Kənd təsərrüfatında statistik yoxlamalar əsasında qadınların rolunun tədqiqi göstərmişdir ki, bu sahədə aparılan işlərin ümumi tutumunda qadınların zəhməti 60-80 faiz edir.

**İnkişaf prosesində qenderə necə yanaşmalı**

İnkişaf problemləri üzrə işdə qender haqqında kənardan göturulmə konsepsiyalardan istifadə olunması, eyni zamanda «ictimai» yaxud «məişət» yanaşmalarına təməl fikir kimi istinad edilməsi həyati vacibdir. Onlardan biri digərini əvəz edə və onu tərkib hissələrə parçalaya bilər. Konkret icmada qender rollarına qiymət verilməsi və onların dərki yolu ilə qadınların (və kişilərin) spesifik tələbatlarını öyrənmək və layihələrdə əks etdirmək olar. Qender təhlilinin inkişaf prosesinə daxil edilməsinə dair ilkin praktiki tələblər qadınlarla məsləhətləşdirilməlidir. Qadınların rolunu və son tələbatlarını daha yaxşı başa düşmək üçün onların fikrini dinləmək gərəkdir. Siyasət istiqamətlərinin düzgün müəyyən edilməsindən qender problemlərinin dəqiq əks

olunması asılıdır. Yanaşmalardan biri – qadınların həyatını yüngülləşdirməyə, onlara üzərilərinə düşən qender vəzifələrinin yerinə yetirilməsində kömək etməyə yönəlmiş layihələrin hazırlanmasıdır. Məsələn, kənd təsərrüfatı layihəsi özündə istər qadınlar qarşısında duran, istərsə də kişilərin həll etdikləri kənd təsərrüfatı vəzifələrin yerinə yetirilməsinə köməyi birləşdirə bilər. Qadınların daha keyfiyyətli avadanlığa, keyfiyyətli taxıla və məsləhətlərə olan ehtiyacları nəzərə alınmalıdır. Səhiyyə sahəsində layihələrdə yalnız qadınlara aid olan komponentlər xüsusi ilə qeyd olunmalı və onların prioritetləri dəqiqliklə əksini tapmalıdır. Məişət səviyyəsində layihələrin məqsədi qadınların dəyirman, soba, su təhcizatını yaxşılaşdırmaqla onların üçüncü əməyini və ağır fiziki iş rejimini yüngülləşdirmək üzərində cəmləşə bilər. Qadınlarla ayrılıqda ya cəmiyyət içində iş aparılmasından asılı olmayaraq, bütövlükdə ilkin məqsəd onlara hazırkı rollarını daha yüksək səviyyədə icra etmələri üçün lazımi şəraitin yaradılmasıdır.

Buna alternatiiv və əlavə yanaşma olaraq «status-kvo»nu dəyişilməsi, yaxud qadınlar və kişilər arasında bərabərsizliyin başa düşülməsi istiqamətidir. Məsələn, bu özündə qadınlar barəsində ayrı-seçgiliyə yol verən qanunların dəyişdirilməsini, qadınların torpaqdan istifadə etmə imkanlarının genişləndirilməsini, layihələr çərçivəsində qadınlara qərarlar qəbul etmək səlahiyyətlərinin verilməsini və s. əks etdirə bilər. Məqsəd – sosial dəyişikliklər və qadınlara səlahiyyətlər verilməsidir.

Nə üçün bərabərsizliyə qarşı qender istiqaməti tabu sayılır, və nə üçün indiyə kimi cəmiyyət ya sinif daxilində bərabərsizlik dəf olunmamışdır? Tez-tez arqument kimi deyilir ki, qenderin bu istiqaməti cəmiyyətin ənənələrinə və mədəniyyətinə zaddir. Heç də mütləq deyildir ki, qenderə olan münasibət siniflərə və hakimiyyətə olan münasibətə nisbətən az ənənəvi olsun. Nə zaman qenderə olan ənənəvi və mədəni münasibət dəyişsə, onda da faktiki qender münasibətləri proqram və layihələrdə öz düzgün qiymətini və əksini tapacaq. İnkişaf – bir prosesdir, ona cəmiyyətin bütün üzvləri özlərinin fərdi ehtiyacları ilə birlikdə bərabər dərəcədə cəlb olunmalıdırlar.

**Qender və İnkişaf: təhlil və planlaşdırma**

Qender və İnkişaf təhlili inkişafın elə modelinə toxunur ki, o, əldə olunan nailiyyətləri təmiz iqtisadi baxımdan ölçməklə köhnə «aşağıdan yuxarıya» nəzəriyyəsinə əsaslanmış olsun. Bu model ona əsaslanırdı ki, yardım gərək sosial strukturun, məsələn, ailənin yaxud icmanın yuxarı təbəqəsinə, oradan isə digər üzvlərinə göstərilsin. Belə yanaşma heç də özünü doğrultmur, belə ki, ailə və ya icma daxilində də münasibətlər həmişə bərabərliyə əsaslanmır. Sosial qrup daxilində adətən cinsi, sinfi, təbəqə, irqi və dini fərqlər yaxud bu faktorların kombinasiyası mövjud olur. Ailədə qadının kişi ilə bərabər hüquqları olmadığından, yardım da qeyri-bərabər bölünür.

Biz təsdiq edə bilərik ki, insanlara böhranlı vəziyyətlərdə edilən yardım kişilər və qadınlar arasında bərabər bölünür. Məsələn, əksəriyyətini qadınlar və uşaqlar təşkil etdiyi qaçqın düşərgələrində ərzaq paylanmasına kişilər rəhbərlik edir, bu isə nadir hallarda ədalətli bölgü ola bilər.

Resursların kişilər və qadınlar arasında qeyri-bərabər bölünməsi halları böhranlı vəziyyətlərdə də mövcuddur.

Qender və İnkişaf sosial vahidlər içindəki münasibətləri və onlar arasında yardımın bölünməsi məsələlərini nəzərdən keçirir. Qender və İnkişafın metod və strukturunun təhlili layihələrin qender baxımından qiymətləndirilməsinin və planlaşdırılmasının əsasını təşkil edir.

# QENDER VƏ İNKİŞAFIN TƏHLİL METODLARI VƏ ANALİTİK STRUKTURLAR

## Əməyin qender bölgüsü

Bu kişilərin və qadınların gördükləri müxtəlif işlərə və bunun fərqli qiymətləndirilməsinə aiddir. Qender əməyinin bölünməsi müxtəlif icmalarda müxtəlif variantlarda bölünür və həm xarici həm də daxili faktorlardan asılıdır. Əməyin qender bölgüsünün kişilərin və qadınların istehsalat münasibətlərindəki analizi bir tərəfdən qarşılıqlı asılılıq və əməkdaşlığı, digər tərəfdənsə qeyri-bərabərlik və konfliktləri üzə çıxarır. Planlaşdırmaq üçün bu münasibətləri bilmək vacibdir: biz gərək bilək ki, bizim müdafiəmiz onların icra etdiyi işə necə təsir edir və bizim müdaxiləmiz onlar arasındakı münasibətlərdə özünü necə göstərir.

## Qadının «Üçlü rolu»

Bu, qadınların yerinə yetirdiyi işlərin təsnifat üsuludur. Yəni, yuxarıda deyildiyi kimi, adətən, onların reproduktiv, məhsuldar və ictimai fəaliyyətinə aiddir. Qadınlar üçlü rol oynayırlar, çünki onlar reproduktiv funksiyalarını yerinə yetirirlər. Təlim Vəsaitində «ictimai iş» anlayışı altında biz ictimai sferada festivalların, xəstələrə qulluğun təşkilindən başlamış siyasi fəaliyyətədək olan bütün növ fəaliyyətləri başa düşürük. Mozerə görə, yaxşı olardı ki, onları iki yerə böləydik – ictimai idarəçiliyə və ictimai siyasi rola. Bu iki növ fəaliyyətin qiymətləndirilməsi layihələrin planlaşdırılmasında üstünlüklərin müəyyən olunmasına təsir edir. Məsələn, uşaqlara qulluq, çətin ki, kişilər üçün üstünlük təşkil etsin, lakin bunun olmaması qadını yardım almaq imkanından məhrum edə bilər.

## Fəaliyyət tipləri / üçlü rol

İstənilən fəaliyyət (iş) üç kateqoriya bölünə bilər. Qadınların rolu hər üç kateqoriyanı əhatə edir və buna görə də «üçlü rol» adlanır.

**<u>Məhsuldar fəaliyyət</u>** – məhsul istehsalı, istehlak və satış üçün xidmətlər göstərilməsi (fermerçilik, balıqçılıq, əmək fəaliyyəti və sahibkarlıq fəaliyyəti) deməkdir. İnsanlardan soruşanda ki, onlar nə ilə məşğuldular, cavab ən çox məhsuldar, ələlxüsus da ödənilən və gəlir gətirən əmək fəaliyyəti ilə bağlı olur. İstər qadınlar, istərsə də kişilər məhsuldar əməyə cəlb oluna bilərlər, lakin onların funksiyaları və vəzifələri, başlıca olaraq əməyin qender bölgüsünə görə, fərqli olmalıdır. Çox hallarda kişilərin əməyinə nisbətən qadınların məhsuldar əməyi gözə az çarpır və az qiymətləndirilir.

**<u>Reproduktiv fəaliyyət</u>** – ailə haqqında qayğını və onun üzvlərinə xidməti, o cümlədən uşaqlara qulluğu, qida hazırlanması, ailəni su və yanacaqla təmin olunmasını, bazarlığı, mənzilin təmizlənməsini, ailəyə tibbi qulluğu nəzərdə tutur. Reproduktiv fəaliyyət bəşəriyyətin yaşaması üçün həlledici rol oynayır, lakin hələ də «əsl iş» kimi qəbul edilmir. Kasıb ailələrdə reproduktiv fəaliyyət əsasən əl ilə həyata keçirilir və çoxlu vaxt tələb edir. Demək olar ki, bu daima qadınlar və qızların vəzifəsidir.

**<u>İctimai fəaliyyət</u>** özündə ictimai tədbirlərin və xidmətlərin kollektiv təşkilini birləşdirir: mərasimlər və yubileylər, cəmiyyətin inkişafına aid tədbirlər, müxtəlif qrup və təşkilatlarda iştirak, yerli səviyyədə siyasi fəaliyyət və s. Fəaliyyətin bu tipi cəmiyyətin inkişaf analizində nadir hallarda baxılır. Bununla belə, o, cəmiyyətin könüllüləri üçün çox vaxt aparır və cəmiyyətin mənəvi və mədəni inkişafında vacib əhəmiyyət kəsb edir, onun özünütəşkilində və özünütəsdiqində hərəkətverici rol oynayır. Burada əməyin

qender bölgüsü üstünlük təşkil etməsinə. Baxmayaraq, həm qadınlar, həm də kişilər ictimai fəaliyyətə cəlb olunublar

Qadınlar, kişilər, oğlanlar və qızlar fəaliyyətin hər üç sferasına cəlb olunmalıdırlar. Buna baxmayaraq, əksər icmalarda qadınlar reproduktiv işin, demək olar ki, hamısını, məhsuldar işin isə çox hissəsini görürlər. Bu sferaların birinə hər hansı bir müdaxilə – mütləq o biri sferada da özünü göstərir. Qadınların iş yükü onların inkişaf layihələrində iştirakına mane ola bilər. Bununla belə, əgər onlar bu layihələrdə iştirak edirlərsə, onların fermerçiliyə, məhsuldar əməyə, təlimlərə və görüşlərə sərf etdikləri vaxt o deməkdir ki, onların digər vəzifələri yerinə yetirmələrinə, məsələn, uşaqlara qulluğa və qida hazırlanmasına vaxtları az qalır.

**«Praktiki» və «nəzəri» təlabatlar**

Praktiki və nəzəri tələbatlar arasındakı fərq və qadının üçlü rolu – bunlar qender planlaşdırılmasının hissələri deməkdir. Mozer tərəfindən işlənib hazırlanmış qender analizi və planlaşdırılmasının bu strukturu kişilərin və qadınların qender tələbatlarının praktiki və nəzəri fərqinə (Mulineksə görə) əsaslanır. Vacibdir ki, bu fərqlər qadınların həyat tərzi və onların kişilərlə müqayisədə cəmiyyətdəki mövqeləri şəraitində baxılsınlar.

Praktiki tələbatlar qadınların həyat tərzinə və əmək vəzifələrinə aiddirlər. Onlara, məsələn, yaxınlıqda yerləşən təmiz su mənbələrinə, qida hazırlamaq üçün daha effektiv peçlərə, kreditlərə, yaxud taxıla olan ehtiyaclar aiddir. Bu tələbatlar qısamüddətli inkişaf proqramları vasitəsilə ödənilə bilər, lakin bu qender bərabərsizliyini aradan qaldıra bilmər. Hərçənd ki, əgər praktiki ehtiyaclar nəzərə alınmasa, bu qadınların vəziyyətinin ağırlaşmasına səbəb ola bilər.

Qadınların asılı vəziyyətindən irəli gələn strateji tələbatlar bu vəziyyətin dəyişdirilməsinə yönəldilib. Bu tələbatlara rəhbər vəzifələrdə bərabər yerləşmək, əmək sahəsində ayrı-seçkiliyi aradan qaldırmaq torpağa sahib olmaq, təhsil almaq, uşaqları zorakılıqdan qorumaq və onların tərbiyəsi üçün məsuliyyəti bölüşdürmək daxildir. Vacibdir ki, strateji məsələləri və onların həlli yollarını qadınlar özləri müəyyən etsinlər. Baxmayaraq ki, praktiki tələbatların ödənilməsi işin başlanğıcı və strateji maraqlara cavab verən olsun. Məsələn, ərzaq bölüşdürülməsinin qadınlara həvalə olunması onların statusunu yüksəldir və resurslar üzərində nəzarətini artırır. Strateji vəzifələrin həlli uzunmüddətli planlaşdırmanı və münasibin dəyişilməsini tələb edir. Kişilərin praktiki və strateji tələbatları və maraqları bir sıra qender bərabərsizliyi məsələlərini qaldırır.

Tələbatların iki kateqoriyası vacib analitik mexanizm olmaqla, təcrübədə çox vaxt üst-üstə düşürlər. Məsələn, qadınların təsərrüfatı aparmaq üçün hesablama və yazı vərdişlərinə yiyələnməsi onların icmada statusunu qaldırır. Eyni zamanda yalnız maddi vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş, lakin təlim elementlərini və resurslar üzərində nəzarəti nəzərə almayan layihələrin dəstəklənməsi qorxusu da vardır. Bu hallar qender bərabərsizliyinin guclənməsin gətirə bilərlər.

**Harvard analitik strukturu: iştirak və nəzarət**

Əməyin və rolların qender bölümünün təhlili bizə cəmiyyətdə hakim münasibətlərin nəyə əsaslandığını başa düşməyə imkan verir. Hakimiyyət torpaq, avadanlıq, əmtəə, siyasi nüfuz və s. bu kimi resurslar üzərində nəzarətə əsaslanır. Bəzi resurslardan, məsələn, torpaqdan, qadınlar da istifadə edə bilərlər, lakin, əgər onların torpağa nəzarət etmə imkanları yoxdursa, deməli, onun nemətlərindən onların istifadə etmək imkanları da məhduddur. Qadınlar çox işlədiklərindən onların ən qiymətli resurs olan vaxta əlləri çatmır. Bu da onları məktəblər və kurslar kimi sosial resurslara yol tapmalarını məhdudlaşdırır, nəticədə isə onları həyatı yaxşılaşdırmaq imkanından məhrum edir.

Harvard analitik strukturu kişilərin və qadınların fəaliyyətini, resurs və nemətlərdən istifadəni və onlar üzərində nəzarəti, həmçinin xarici faktorları (siyasi, iqtisadi, mədəni və s.) öyrənir. Bu isə bizə həmin faktorların kişilərə və qadınlara müxtəlif səviyyələrdə onların yaş, mədəniyyət, sinif və s. xüsusiyyətlərini nəzərə almaqla, necə təsir etdiyini təhlil etmək imkanı verir.

**İnsanlara istiqamətləndirilmiş analitik struktur**

Bu struktur Harvard metoduna əsaslanmış, qaçqınlarla iş üçün yaradılmışdır. İnsanlarla böhran vəziyyətlərdə istənilən iş metodundan istifadə oluna bilməsinə baxmayaraq, bu metod məhz qaçqınlarla iş üçün hesablanmış, həyatda dramatik dəyişiklilər baş verdikdə, qanunvericilik və sosial müdafiə məsələlərinin həllində istifadə olunur. Təhlilin əsas mövzusu – itkilərdir.

**Bacarıq və zəifliyin təhlili**

Bacarıq və zəifliyin təhlili metodu 1980-ci illərin sonunda əlaqələndiricisi Harvard olan Beynəlxalq yardım və inkişaf layihəsindən yaranmışdır. Bu metod yardım və inkişaf proqramlarında istifadə oluna bilər. Bacarıq və zəifliyin təhlili göstərir ki, böhran vəziyyətlərdə insanların iztirablara qarşı müqavimətini müdafiə etmək lazımdır. Müdafiə sosial, təşkilati, resurs formasında ola bilər. Metod layihənin istənilən mərhələsində istifadə oluna bilər.

**Sorğu vərəqələri**

Qender təhlilinin və planlaşdırmasının çoxsaylı mexanizmləri mövcuddur. Sual və qiymət kriteriyaları, inkişaf ölçüləri daşıyan sorğu vərəqləri qiymətləndirimədə və planlaşdırmada çox dəyərlidirlər. Toplanan göstəricilər sonradan inkişaf və yardım proqramlarının müvəffəqliyini qiymətləndirmədə istifadə oluna bilərlər.

**Qiymətləndirmə mexanizmləri**

Qiymətləndirmə mexanizmləri iştirak prinsipinə əsaslanır və həm kişilərdən həm də qadınlardan bilavasitə informasiya almağa əsaslanmışdır. Lakin onlar bir sıra sosial və mədəni faktorlardan asılıdırlar (qadınların qorxmadan suallara cavab vermə imkanı). Buna görə də bu qrup daxilindəki qender münasibətləri haqqında əvvəlcədən məlumatlı olmaq lazımdır.

**İştirak prinsipinə əsaslanmış təlim metodu**

Təlim bilikləri dərinləşdirmək və vərdişlərə yiyələnmək üçün keçirilir. O, toxuculuq işini öyrənmək və kompüter vərdişlərinə yiyələnmək kimi texniki vərdişlərə sahib olmaqdan başlamış, mürəkkəb ideyaların öyrənilməsinədək geniş məsələlər dairəsini əhatə edir. Təlim çox vaxt qısamüddətli və intensivdir. Adətən o, müəyyən olunmuş hədəfə - insanlara və ya institutlara yönəlir.

**İştirak prinsipinə əsaslanmış metod**

Bu yanaşma o inama əsaslanır ki, insanlar, onların qabiliyyətləri və bilikləri layiqincə qiymətləndirildiyi və onlar dost əhatədə oluqları zaman yaxşı təhsil ala bilərlər. Təlimi hazırlayıb keçirərkən onun insanların tələbatlarına uyğun olduğuna fikir vermək

lazımdır. Təlimatçının rolu əslində dərs demək yox, tədris prosesini yüngülləşdirmək olmalıdır. Bu təlim braziliyalı müəllim Paolo Friyerenin ideyalarına əsaslanır:

- Təlim iştirakçılar tərəfindən qarşıya qoyulmuş tapşırıqların həllinə əsaslanmalıdır;
- Təhsil şagirdlərin tələbatları və onların həyat təcrübəsi üzərində qurulmalıdır;
- Təhsil prosesi – fikir və dialoq mübadiləsidir.

**Təcrübəyə əsaslanmış təlim**

İnsanlar prosesin aktiv iştirakçısı olduqda, daha effektiv təhsil alırlar. Bu tədris Vəsaitində müxtəlif metodlar, tapşırıq və oyunlar təqdim olunur ki, onlar da insanlara mənimsədikləri biliklər əsasında öz təcrübələrini sınamaq, işlərini planlaşdırmaq imkanı verir. Göstərilən metod insanlara öz biliklərini başqaları ilə bölüşməyə, birgə işləməyə və cavablar tapmağa kömək edir. Uğur qazanmaq üçün qruplar düzgün təşkil edilməlidirlər.

Təlimatçının rolu ondadır ki, o, təlim iştirakçılarının məşğələlərdən maksimum bilik almalarına köməklik göstərsin və onların əsas ideya və konsepsiyaları qavramalarına nəzarət etsin.

Yeri gəldikdə, o, proqramları şəraitə uyğunlaşdırmağa hazır olmalıdır ki, bu kursların tələbələrinə cavab versin.

**Xəbərdarlıq**

Təlim – məqsədə nail olmaq vasitəsidir, lakin son məqsəd deyil. Problemlər təlim keçirməklə həll olunmurlar. Təlim struktur daxilində onu himayə edən strategiyanın bir hissəsi olmalıdır. Təlim nəticələrinin istifadəsi üçün müvafiq mexanizmlər yaradılmalıdır. Əks halda qorxu qalır ki, təlim institutlar tərəfindən heç bir digər hərəkət etməmək əsası kimi istifadə olunsun.